USAID
AMERİKA XALQINDAN

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# Vətəndaşlıq fənnində kompleks tapşırıqlar

2023

**Müəllimlər üçün köməkçi resurs**

# Müəllimlər üçün köməkçi resurs

Resurs USAID Vətəndaşlıq Təhsili proqramı çərçivəsində hazırlanıb

# Müəllimlər üçün köməkçi resurs

Müəllimlər üçün köməkçi resurs

Müəllif: Şalva Mekravişvili
İşçi qrupun rəhbəri: Maka Bibileişvili
Redaktor: Rita Bainduraşvili

2023-ci il
Resurs, Amerika xalqının dəstəyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin səyləri əsasında hazırlanıb. Daxilində əks olunan məlumat və ifadə olunan fikirlər üzrə məsuliyyət yalnız müəlliflərə məxsusdur və o PH international, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya Amerika Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.

# Mündəricat

Kompleks tapşırıq N1 - Tullantıların ayrılması (VII sinif) ........ 4
Kompleks tapşırıq N2- Dezinformasiya (VIII sinif) ........ 7
Kompleks tapşırıq N3- Gürcüstanın dövlət idarəçiliyində demokratiyanın dərəcəsi (IX sinif)........ 11
Kompleks tapşırıq N4- Gürcüstanda vətəndaşlıq almaq və qanuni yaşamaq imkanları (X sinif) ........ 9
Kompleks tapşırıq N5- Müharibə cinayəti (XI sinif)........ 3

# Kompleks tapşırıq N1 - Tullantıların ayrılması (VII sinif)

<table>
<tr><td colspan="4">Mövzu: Təbii mühitin və mədəni irsin mühafizəsi</td></tr>
<tr><td>Kompleks tapşırıq<br>(başlıq)</td><td>Hədəf anlayışı və alt anlayışlar</td><td>Məsələ</td><td>Əsas sual</td></tr>
<tr><td>Tullantıların ayrılmasının vacibliyini vurğulamaq üçün zibil qutusu gündəliyi yaratmaq.</td><td>Davamlı inkişaf<br>Davamlı ekoloji inkişaf, tullantıların idarə edilməsi</td><td>Tullantıların ayrılması</td><td>Davamlı ekoloji inkişaf üçün tullantıların ayrılmasının vacibliyini gündəlikdə necə nümayiş etdirməliyəm?</td></tr>
<tr><td>Uzunvadəli hədəf<br><br>Hədəf anlayışı və onunla bağlı yerli təsəvvürlər</td><td>Məsələ/alt məsələlər<br>Tullantıların ayrılması<br><br>Alt anlayışlar:<br>Davamlı ekoloji inkişaf, tullantıların idarə edilməsi</td><td>Əsas sual/suallar<br><br>Davamlı ekoloji inkişaf üçün tullantıların ayrılmasının vacibliyini gündəlikdə necə nümayiş etdirməliyəm?</td><td>Aralıq tədris hədəfi<br><br>Kompleks tapşırığın şərti</td></tr>
<tr><td>Davamlı inkişaf<br><br>Nəticələr:<br>Təməl pillə:<br>7, 10, 11<br><br>Orta pillə:</td><td colspan="2">I mərhələ: Kompleks tapşırığın forması<br><br>Addım 1. Öyrənilməli olan mövzu ilə bağlı biliyimi necə nümayiş etdirməliyəm?<br><br>Resurs:<ul><li>Məhsulun – gündəliyin yazılma mahiyyəti - Gündəlik nədir, necə yazaq, şəxsi gündəliyi necə hazırlamalıyıq</li></ul></td><td>Təsəvvür et ki, məhəllənizdəki zibil qutusu hiss etmək və düşünmək qabiliyyətinə malikdir. İnsanların ora hər cür zibil atmasından narahatdır. O bilir ki, qabaqcıl ölkələrdə tullantıların çeşidlənməsi (ayırılması) mədəniyyəti formalaşıb və bu məqsədlə müxtəlif rəngli bir neçə qutudan istifadə edirlər. Oraya atılan çeşidlənməmiş tullantıların sonda təbiətin daxilinə girib ətraf mühiti</td></tr>
</table>

<table>
<tr>
<td rowspan="4">3<br><br>1. Resurslardan istifadə edərkən cəmiyyətin maraqlarını və gələcək perspektivini nəzərə almaq vacibdir;<br><br>2. Lokal davranışları qlobal nəticələr izləyir (məsələn, ətraf mühitin qayğısına qalmaq əhəmiyyətsiz görünən hərəkətlərdən başlayır (məsələn, zibil atmamaq, polietilen torbalardan imtina etmək)).</td>
<td colspan="2">• Gündəlik nümunəsi (hissələr) : Maro Makoşvilinin gündəliyi, Maro Makoşvilinin gündəliyi (tam mətn), Anna Frankın gündəliyi</td>
<td rowspan="3">çirkləndirməsindən də əziyyət çəkir. Zibil qutusu fikirlərini və qayğılarını gündəlik şəklində ifadə etmək qərarına gəldi, lakin onun əli yoxdur və yaza bilmir. Onun sirdaşı ol və bu gündəliyi yaz.<br><br>Gündəlikdə/təqdimat zamanı aydın şəkildə əks etdir:<br><br>• İnsanlar tullantıları niyə çeşidləməlidirlər (y.t. 1, 2);<br>• Tullantıların çeşidlənməsi dövlətin və cəmiyyətin davamlı inkişafına necə töhfə verəcək, xalqa və ölkəyə hansı faydalar gətirəcək (y.t. 1, 2).</td>
</tr>
<tr>
<td>Deklarativ və şərti biliklərə yönəldilmiş suallar</td>
<td>• Gündəliyi oxumusanmı?<br>• Gündəlik sənə necə təsir etdi?</td>
</tr>
<tr>
<td>Prosessual biliyə yönəldilmiş suallar</td>
<td>• Gündəliyi necə yarada bilərəm?<br>• Gündəlik yaratmaq üçün hansı addımları atmalıyam? (yardımçı materialla tanış olum)<br>• Gündəliyin xüsusiyyətlərini necə vurğulayım?</td>
</tr>
<tr>
<td colspan="2">II mərhələ: Kompleks tapşırığın şərti<br>Addım 1. İnsanlar tullantıları niyə çeşidləməlidirlər (y.t. 1, 2); Tullantıların çeşidlənməsi dövlətin və cəmiyyətin davamlı inkişafına necə töhfə verəcək, xalqa və ölkəyə hansı faydalar gətirəcək (y.t. 1, 2).<br><br>Resurslar:<br><br>1. Məktəb dərsliyi. VII sinif, Dioqene nəşriyyatı, səh. 110, 116-119.<br><br>2. Davamlı inkişaf və onun perspektivləri<br><br>3. Tullantıları nə üçün təbiətə atmamalıyıq<br><br>4. Tullantıların çeşidlənməsi ilə bağlı animasiya videoları (ingilis dilində):<br><br>Tullantıların təkrar emalı haqqında hər şey<br><br>Uşaqlar üçün tullantıların təkrar emalı<br><br>Tullantıların idarə olunması</td>
<td></td>
</tr>
</table>

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Ətraf mühitin çirklənməsi cəmiyyət üçün hansı təhlükələr yaradır?<br>• Ətraf mühiti çirkləndirən tullantıları azaltmağın yolları hansılardır?<br>• Sivil ölkələrdə tullantıları necə idarə edirlər?<br>• Bu dövlətlərin təcrübəsindən ölkəmizdə necə istifadə etmək olar? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Tullantıların çeşidlənməsinin cəmiyyət üçün nə qədər vacib olduğunu gündəliyimdə necə göstərə bilərəm? |

III mərhələ: kompleks tapşırığın t**əqdim edilməsi**

Şagirdlər kompelks tapşırığı təqdim edərkən müəllim tərəfindən verilən suallar:

- Təsvir et, tapşırıq üzərində işləmə prosesinin necə keçdi?
- Təsvir et, hansı məhsulu yaratdın?
- İzah et, hazırladığın tapşırığın mövzusu nədir?
- İzah et, gündəliyi nə üçün hazırladın? Onun vasitəsilə nə demək istəyirdin?
- Fikrincə, niyə yaratdığın məhsul həqiqətən gündəlikdir?
- Səncə, yaratdığın kompleksli tapşırıqla kim maraqlanmalıdır və niyə?
- Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdın?
- Tapşırığa indi başlasaydın fərqli şəkildə nəyi yerinə yetirərdin?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisənmi?
- Səncə, tapşırığının sinif yoldaşlarının işləri ilə nə ortaq və fərqli cəhəti var?

## Kompleks tapşırıq N2- Dezinformasiya (VIII sinif)

| Mövzu: Mülki cəmiyyət | | | |
|---|---|---|---|
| Kompleks tapşırıq<br>(başlıq) | **Hədəf anlayış və alt anlayışlar** | **Məsələ** | **Əsas sual** |
| Media məkanından Jurnalist Etikası Xartiyasına göndərilmək üçün aşkar edilmiş konkret dezinformasiya əsasında şikayət məktubunun hazırlanması | Mülki iştirak<br>Şikayət məktubu, açıqlama | Dezinformasiya | Aşkar edilmiş dezinformasiya ilə bağlı Jurnalist Etikası Xartiyasına göndərmək üçün şikayət məktubunu necə tərtib edim? |
| Uzunvadəli hədəf<br>Hədəf anlayışı və onunla bağlı yerli təsəvvürlər | Məsələ/Alt məsələlər<br>Dezinformasiya<br>Alt anlayışlar:<br>Şikayət məktubu, açıqlama | **Əsas sual/suallar**<br>Aşkar edilmiş dezinformasiya ilə bağlı Jurnalist Etikası Xartiyasına göndərmək üçün şikayət məktubunu necə tərtib edim? | Aralıq t**ədris hədəfi**<br>Kompleks tapşırığın **şərti** |
| Mülki iştirak<br>**Nəticələr**<br>**Təməl pillə**:<br>8, 9, 12, 13<br>1. Demokratik cəmiyyət fəal vətəndaşlardan ibarət vətəndaş cəmiyyətidir; | I mərhələ: Kompleks tapşırığın forması<br>Addım 1 Öyrənilməli olan mövzu ilə bağlı biliyimi necə nümayiş etdirməliyəm?<br>Dərs 1.<br>Resurs:<br>• Jurnalist Etikası Xartiyasına təqdim etmək üçün şikayət məktubunu necə yazmalıyıq? [https://www.qartia.ge/ka/ganckhadebis-shetana](https://www.qartia.ge/ka/ganckhadebis-shetana)<br>• [Ərizə nümünəsi](). | | Müasir dövrün çağırışlarından biri dezinformasiyadır. İnsanlar müxtəlif məqsədlər üçün saxta məlumatlar yayırlar. Dezinformasiya ilə mübarizədə əsas silah onu ifşa etmək və saxta məlumat yayanlara qarşı qanuni vasitələrdən istifadə etməkdir. Belə vasitələrdən biri də istənilən vətəndaşın şikayət daxil edə biləcəyi Jurnalist Etikası Xartiyasıdır. Təsəvvür et ki, sən |

2. Mülki iştirak ictimai ehtiyacların/ölkənin qayğısına qalmaq vasitəsidir;

3. Fəal vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması-həyata keçirilməsi, könüllülük, advokatlaşdırma, lobbiçilik) ictimai problemlərin həllinin qayğısına qalırlar. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlar, qeyri-hökumət təşkilatları, dövlət strukturları ilə əməkdaşlıq edir;

4. Mülki iştirak zamanı digər insanların maraqlarını nəzərə almaq vacibdir;

5. Mülki iştirak zorakı hərəkətləri istisna edir.

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Şikayət məktubu yazıbsanmı?<br>• Şikayət məktubu səndə hansı emosiyaları oyadır? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Şikayət məktubunu necə yazım?<br>• Şikayət məktubunu tərtib etmək üçün hansı addımları atmalıyam?<br>• Şikayət məktubunun xüsusiyyətlərini necə müəyyən edə bilərəm? (arqumentlər formalaşdırmaq, yükləmək üçün material/sübutlar hazırlamaq) |

II mərhələ: Kompleks tapşırığın **şərti**

Addım 1. Bu tip fəaliyyətin ölkənin demokratik inkişafı üçün niyə vacibdir (y.t.1).

Jurnalist Etikası Xartiyasına (y.t. 2, 3, 4) saxta məlumat yayandan şikayət verilməsinin cəmiyyət üçün əhəmiyyəti nədir?

Oxşar davranışın nə üçün doğrudur və belə bir halda zorakı hərəkətə niyə icazə verilmir? (y.t.5)

Resurslar:

1. Məktəb dərsliyi. VIII sinif, Dioqene nəşriyyatı, səh. 57-61.
2. Jurnalist Etikası Xartiyasının prinsipləri.
3. Baxılan işin və qəbul edilmiş qərarın nümunəsi.
4. Sübutlar nümunəsi.
5. Dezinformasiya nümunələrini tapa biləcəyiniz saytlar:

də dezinformasiyaya qarşı mübarizədə iştirak etmək qərarına gəldin. Kütləvi informasiya vasitələrində yayılan hər hansı dezinformasiyanı tap və onu yayan şəxsə qarşı şikayət ərizəsi yaz ki daha sonra, məktubu Jurnalist Etikası Xartiyasına göndərə bilərsiniz.

Şikayət məktubunda/təqdimat zamanı aydın şəkildə nümayiş etdir:

- Bu tip fəaliyyətin ölkənin demokratik inkişafı üçün niyə vacibdir (y.t.1).
- Jurnalist Etikası Xartiyasına (y.t. 2, 3, 4) saxta məlumat yayandan şikayət verilməsinin cəmiyyət üçün əhəmiyyəti nədir?
- Oxşar davranışın nə üçün doğrudur və belə bir halda zorakı hərəkətə niyə icazə verilmir? (y.t.5)

https://mythdetector.ge/ka/

https://factcheck.ge/ka?

https://mdfgeorgia.ge/geo/stories

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Materiala görə, dezinformasiyanın mahiyyəti nədən ibarət idi?<br>• Tarix müəllimi özünü dezinformasiyadan qorumaq üçün hansı qurumlara müraciət edib?<br>• Xartiyada jurnalisti ifşa etmək, ondan şikayət etmək həm müəllimə, həm də cəmiyyət üçün niyə vacib idi?<br>• Tarix müəlliminin hərəkəti nə dərəcədə əsaslı və qeyri-zorakı idi?<br>• Bundan əlavə, həm iddiaçıya (müəllim), həm də cavabdehə (jurnalist) nə məsləhət görərdiniz? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Tarix müəllimi jurnalistin onun haqqında yaydığı dezinformasiyadan qorunmaq üçün hansı addımları atıb? |

III mərhələ: kompleks tapşırığın t**əqdim edilməsi**

Şagirdlər kompelks tapşırığı təqdim edərkən müəllim tərəfindən verilən suallar:

- Təsvir et, tapşırıq üzərində işləmə prosesinin necə keçdi?
- Təsvir et, hansı məhsulu yaratdın?
- İzah  et, hazırladığın tapşırığın mövzusu nədir?
- İzah  et, şikayət məktubunu niyə yazdın? Onun vasitəsilə nə demək istəyirdin?
- Fikrincə, yaratdığın məhsul həqiqətən şikayət məktubudurmu?
- Səncə, yaratdığın komplekli tapşırıqla  kim maraqlanmalıdır və niyə?

| | | |
|---|---|---|
| | • Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdın?<br>• Tapşırığa indi başlasaydın  fərqli şəkildə nəyi yerinə yetirərdin?<br>• Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığının sinif yoldaşlarının işləri ilə nə ortaq və fərqli cəhəti var? | |

# Kompleks tapşırıq N3- Gürcüstanın dövlət idarəçiliyində demokratiyanın dərəcəsi (IX sinif)

| Mövzu: Mərkəzi hökumət | | | |
|---|---|---|---|
| Kompleks tapşırıq<br><br>(adı) | **Hədəf anlayışı və alt anlayışlar** | **Məsələ** | **Əsas sual** |
| Gürcüstanın dövlət idarəçiliyinin demokratiya prinsiplərinə uyğunluğu haqqında məqalə yazmaq | Demokratiya<br><br>Demokratiya prinsipləri | Gürcüstanın dövlət idarəçiliyində demokratiyanın dərəcəsi | Beynəlxalq araşdırmalara əsaslanaraq məqalədə Gürcüstanın dövlət idarəçiliyinin demokratiya prinsiplərinə uyğunluğunu necə təhlil edib nümayiş etdirə bilərəm? |
| Uzunvadəli hədəf<br><br>Hədəf anlayışı və onunla bağlı yerli təsəvvürlər | Məsələ/Alt məsələlər<br><br>Gürcüstanın dövlət idarəçiliyində demokratiyanın indeksi<br><br>Alt anlayışlar:<br><br>Demokratiya prinsipləri | **Əsas sual/suallar**<br><br>Beynəlxalq araşdırmalara əsaslanaraq məqalədə Gürcüstanın dövlət idarəçiliyinin demokratiya prinsiplərinə uyğunluğunu necə təhlil edib nümayiş etdirə bilərəm? | Aralıq t**ədris hədəfi**<br><br>Kompleks tapşırığın ş**ərti** |
| Demokratiya (insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri)<br><br>Nəticələr:<br><br>Orta pillə:<br><br>3, 4, 13. | I mərhələ: Kompleks tapşırığın forması<br><br>Addım 1 Öyrənilməli olan mövzu ilə bağlı biliyimi necə nümayiş etdirməliyəm?<br><br>Dərs 1.<br><br>Resurs:<br><br>• Məhsulun - məqalənin yazılmasının əhəmiyyəti. Məqalə http://www.rogor.ge/article_1103_rogor-davwerot-kargi-statia.html | | Təsəvvür et ki, beynəlxalq araşdırma təşkilatının ekspertisən. Təşkilatın bütün dünyada ölkələrin nə dərəcədə demokratik olduğunu araşdırır. Hazırda sənə Gürcüstanın dövlət idarəçiliyində demokratiyanın dərəcəsini öyrənmək tapşırılıb. Verilən məlumatları öyrən və dövlətin onlara əsaslanaraq nə dərəcədə |

1. Hər bir insan öz ləyaqəti və hüquqları ilə azad və bərabər doğulur;

2. Şəxs mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqlara malikdir; Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (bəyannamələr, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;

3. Demokratik cəmiyyətdə/dövlətdə insan hüquqları ən mühüm dəyərdir;

4. Demokratiya fundamental prinsiplərə (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı üsullarla fəaliyyət, tolerantlıq) əsaslanırki, bu prinsiplər qorunmasa, demokratik dövlət fəaliyyət göstərə bilməz.

- Araşdırma **əsaslı məqalə nümunəsi** დემოკრატიის რეიტინგში საქართველო 90-ე ადგილზეა

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Məqaləni oxumusanmı?<br>• Məqalə sənə necə təsir etdi? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Məqaləni necə hazırlayım?<br>• Məqalə yaratmaq üçün hansı addımları atmalıyam (köməkçi materialla tanış olmaq)<br>• Məqalənin xüsusiyyətlərini necə vurğulaya bilərəm? (Plan, başlıq, açar sözlər, giriş, əsas hissə və nəticə.) |

II mərhələ: **Kompleks tapşırığın məzmunu**

Addım 1. Dövlət insanların ləyaqətini, azadlığını, bərabərliyini və mülki, siyasi, sosial-iqtisadi, kollektiv hüquqlarını necə qoruyur (y.t. 1, 2, 3).

Resurslar:

1. Məktəb dərsliyi. Sinif X, Dioqene nəşriyyatı, səh. 16-26, 40-41.

2. Gürcüstan Konstitusiyası (İkinci fəsil)

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Gürcüstan Konstitusiyası vətəndaşlara hansı hüquq və azadlıqları verir?<br>• Gürcüstan Konstitusiyası insan hüquqlarının müdafiəsi baxımından hansı mexanizmləri nəzərdə tutur?<br>• Gürcüstanın müasir konstitusiyasının qəbulundan əvvəl hansı tarix dayanır? |

demokratik olduğunu araşdır. Araşdırmanın nəticələrini xüsusi məqalədə əks etdir edin və sinifə təqdim et.

Məqalədəa/təqdimat zamanı aydın şəkildə nümayiş etdir:

- Dövlət insanların ləyaqətini, azadlığını, bərabərliyini və mülki, siyasi, sosial-iqtisadi, kollektiv hüquqlarını necə qoruyur (y.t. 1, 2, 3).
- Gürcüstanda demokratiya prinsipləri nə dərəcədə qorunur (y.t. 4).

| | |
|---|---|
| Prossessual biliyə yönəldilmiş suallar | • Gürcüstan Konstitusiyasının hər maddəsi demokratiyanın hansı prinsiplərinə aiddir? (qruplaşdırın, uyğunlaşdırın, bunun üçün cədvəl yaradın) |

Addım 2. Gürcüstanda demokratiya prinsipləri nə dərəcədə qorunur (y.t. 4).

Resurslar:

1. Gürcüstan Freedom House-un detallı hesabatında

2. V-Dem-in nəticələri: 2021-ci ildə Gürcüstanın demokratiya dərəcəsi pisləşdi

3. "Rəngarənglik naminə demokratiya" təşkilatının araşdırmasına əsasən, demokratiyanın onillik tərəqqisi ilə Gürcüstan dünyanın ən yaxşı onluğundadır

4. Demokratiya indeksi (vikipediya)

5. Demokratiya (oxu materialı). **Əlavəyə bax**. səh. 4-11.

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Demokratik ölkələrin müxtəlif reytinqlərinə görə Gürcüstan hansı yerdədir? Fərqli yerlərdə olmağı nə ilə izah edərsən?<br>• Verilən mənbələrə görə, Gürcüstanda demokratiyanın hansı prinsipləri tam şəkildə qorunur?<br>• Verilən mənbələrə görə, Gürcüstanda demokratiyanın hansı prinsipləri qismən qorunur?<br>• Verilən mənbələrə görə, Gürcüstanda demokratiyanın hansı prinsiplərinə ümumiyyətlə riayət olunmur? |

| | |
|---|---|
| Prosessual biliyə yönəldilmiş suallar | • Gürcüstanda demokratiyanın hansı prinsiplərinin tam qorunduğunu necə sübut edə bilərəm?<br>• Gürcüstanda demokratiyanın hansı prinsiplərinin qismən qorunduğunu necə əsaslandıra bilərəm?<br>• Gürcüstanda hansı demokratiya prinsiplərinin ümumiyyətlə qorunmadığını necə əsaslandıra bilərəm? |

III mərhələ: kompleks tapşırığın t**əqdim edilməsi**

Şagirdlər kompleks tapşırığı təqdim edərkən müəllim tərəfindən verilən suallar:

- Təsvir et, tapşırıq üzərində işləmə prosesi necə getdi?
- Təsvir et, hansı məhsulu yaratdın?
- Hazırladığın tapşırığın mövzusu nə ilə bağlıdır?
- İzah et, məqaləni niyə hazırladın? Onun vasitəsilə nə demək istəyirdin?
- Nə düşünürsən, yaratdığın məhsulun həqiqətən də məqalədirmi?
- Səncə, yaratdığın kompleks tapşırıqla kim və nə üçün maraqlanmalıdır?
- Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdın?
- Tapşırığın üzərində işləməyə indi başlasaydın, nəyi daha fərqli şəkildə edərdin?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt heç yerinə yetirmişdinmi?
- Səncə, sənə verilən tapşırığın sinif yoldaşlarının işi ilə hansı ortaq və fərqli cəhətləri var?

**Əlavə.**

Demokratiya

Oxu materialı

3. Demokratiyanın **əsas prinsipləri.** Alimlər cəmiyyətin/dövlətin nə qədər demokratik olduğunu müəyyən edən bir neçə fundamental prinsipləri müəyyənləşdirirlər. Onların hər birini qısaca nəzərdən keçirək.

I. *Ölkənin idarəolunmasında vətəndaşların iştirakı* – demokratiyanın əsas prinsiplərindən biridir. Demokratik ölkənin idarə olunmasında iştirak etmək vətəndaşın əsas funksiyasıdır. Vətəndaşın ölkə həyatına cəlb edilməsi onun həm hüququ, həm də öhdəliyidir. Vətəndaşın dövlətin idarə olunmasında iştirakı müxtəlif formalarda ifadə olunur: seçkilərdə iştirak etməklə, səs verməklə, ölkədə baş verən siyasi proseslər haqqında məlumatlara malik olmaq, mühüm problemləri müzakirə etmək, müxtəlif ictimai toplantılarda və ya dinc və etiraz aksiyalarında iştirak etmək, könüllü fəaliyyət, vergi ödəmək, etiraz etmək, petisiya imzalamaq, siyasətçilərə məktublar yazmaq, müxtəlif ictimai qruplara və birliklərə qoşulmaqla və s. Sadalanan iştirak formaları demokratik cəmiyyətdə öz mövqeyini müəyyən etmək üçün mühüm mexanizmlərdir. Belə hallarda cəmiyyət ölkədə gedən proseslərdən təcrid olunduqda, hakimiyyətin nəzarəti, "nəzarət-tarazlıq" sisteminin əsas elementləri həyata keçirilmir. Belə olan halda dövlət nümayəndələri və dövlət qulluqçuları özlərini tam azadlıq hiss edə və məhdudiyyətsiz, öz maraqları naminə hərəkət edə bilərlər. Hökumətin bu cür hərəkəti cəmiyyətin rifahına xələl gətirə və insan hüquqlarının pozulmasına səbəb ola bilər.

II. *Hökumətə nəzarət etmək* – Cəmiyyət çalışmalıdır ki, hər hansı seçilmiş şəxs və ya bir qrup şəxs tərəfindən səlahiyyətdən sui-istifadə hallarına yol verilməsin. Korrupsiya hakimiyyətdən sui-istifadənin ən geniş yayılmış formasıdır. Korrupsiya, dövlət nümayəndəsi və ya dövlət qulluqçusu dövlət əmlakını şəxsi məqsədləri üçün xərcləyəndə baş verir. Həmçinin hökumət nümayəndəsi vəzifə səlahiyyətlərindən qanunsuz istifadə etdikdə. Korrupsiyadan qaçmaq üçün müxtəlif ölkələr müxtəlif üsullardan istifadə edirlər. Əsasən nəzarət vətəndaşlar, qanunvericilik və müxtəlif qurumlar tərəfindən olunur. Bu prinsipin mühüm cəhətlərindən biri güclü "yoxlama-tarazlıq" sistemidir. "Yoxlama-tarazlıq" hakimiyyət qolları arasında konstitusiyaya uyğun olaraq səlahiyyət bölgüsünə aiddir.

Demokratik dövlətdə mərkəzi hakimiyyətin 3 qolu vardır ki, onlar bir-birini tarazlaşdırmalı və nəzarət etməlidirlər:

ა) Qanunverici - funksiyası ölkədə əsas qanunvericilik bazasını yaratmaqdır. Birpalatalı və ikipalatalı parlamentlər mövcuddur. İkipalatalı parlamentdə, bir qayda olaraq, yuxarı palata majoritar qayda ilə, yəni regionlardan olan nümayəndələr, aşağı palata isə proporsional qayda ilə, yəni siyasi partiyaların siyahıları üzrə formalaşır. Bu palatalar bir-birini yoxlayır və balanslaşdırır; Birpalatalı parlament əsasən ya proporsional qayda ilə,

ya da qarışıq seçkilərlə (majoritar və proporsional birlikdə) formalaşır. Gürcüstanda indiyədək parlament seçkiləri qarışıq üsulla keçirilib, lakin növbəti seçkilər tam proporsional sistemlə keçiriləcək.

ბ) İcraçı - funksiyası ölkədə qəbul edilmiş qanunların icrasını təmin etməkdir. İcraçı hakimiyyətə hökumət daxildir və hətta prezident də daxil ola bilər. Hazırda Gürcüstan prezidenti hakimiyyətin heç bir qoluna daxil deyil. O, müəyyən mənada hakimiyyətin hər üç qolunun balanslaşdırıcısı və hakimi funksiyasını daşıyır.

გ) M**əhkəmə** – funksiyası ölkədə ədalət mühakiməsini həyata keçirməkdir. Ədalət mühakiməsi inzibati (qanunvericiliklə bağlı davalara, yəni vətəndaşlar və hakimiyyət orqanları arasında davalara, habelə kiçik hüquq pozuntulara baxır), mülki (vətəndaşlar arasında xüsusi xarakterli davalara baxır), cinayət (cinayətlərlə bağlı işlərə baxır) və konstitusiya xarakterlidir (qanunlara və digər aktların Konstitusiyaya uyğunluğuna baxır).

Hakimiyyətə nəzarət müxalifət partiyalarının mühüm funksiyalarından biridir.

Yerli özünüidarəetmə səviyyəsində nümayəndəlik orqanı – Sakrebulo icraçı hakimiyyətə – munitsipalitet merinə qarşı "yoxlama və tarazlıq" həyata keçirir.

Qeyd edək ki, hökumətin həm mərkəzi, həm də yerli səviyyədə nəzarəti müxalifət partiyalarının mühüm funksiyalarından biridir.

Demokratik siyasi sistemin müəyyən etdiyi bu nəzarət mexanizmləri ilə yanaşı, qeyri-rəsmi nəzarət vasitələri də mövcuddur. Hakimiyyətin hər üç qolunun fəaliyyətini işıqlandıran kütləvi informasiya vasitələri hətta bu yolla onlara nəzarət də edir (bu səbəbdən medianı qeyri-rəsmi olaraq "hakimiyyətin dördüncü qolu" adlandırırlar). Dövlət nəzarəti baxımından vətəndaş cəmiyyətinin də (qeyri-hökumət təşkilatları, peşə birlikləri, təşəbbüs qrupları, sadə vətəndaşlar tərəfdən) fəaliyyəti böyük əhəmiyyət kəsb edir.

III. Qanunun aliliyi – Demokratik cəmiyyətdə nə çar, nə də xalq tərəfindən seçilən prezident qanundan üstün ola bilməz. Qanunun gücü budur ki, dövlətin vətəndaşları qanuna tabe olmalı, qanun pozulduqda qanun qarşısında cavab verməlidir. Demokratiya prinsipləri də hamının qanun qarşısında bərabər olmasını tələb edir. Beləliklə, qanunun aliliyi ondan ibarətdir ki, heç kim qanundan üstün deyil. Hər kəs qanuna əməl etməyə borcludur və qanun pozuntusuna yol verildikdə bərabər məsuliyyət daşıyır.

Qanunun aliliyini vurğulamaq o deməkdir ki, söhbət demokratik dövlətin konsensus yolu ilə qəbul edilən (vətəndaş cəmiyyətinin geniş iştirakı ilə ona baxılması-qəbulu ) yaxşı, ədalətli qanundan gedir. Təbii ki, qeyri-demokratik, ədalətsiz, təhqiredici qanunlar var, lakin onlar qeyri-demokratik dövlətlər üçün xarakterikdir. Təəccüblü deyil ki, insanlar bu cür pis qanunlara tabe olmamağa çalışırlar, tabe olanlar isə bunu qorxaraq edirlər.

Demokratik cəmiyyətdə yüksək dövlət şüuruna malik olan qanuna tabe olan insanlar cəzadan qorxduqları üçün deyil, qanunun mahiyyətindən xəbərdar olduqları üçün qanunlara tabe olur, onları pozmamağa çalışırlar. Axı o, ictimai həyatın nizamlı olması üçün yaradılıb. Biz qanunu pozmaqla məhz bu nizam-intizamı pozur, iğtişaşlar yaradır, həmvətənlərimizə, cəmiyyətə, dövlətə problemlər yaradırıq.

Məsələn, işıqforun qırmızı işığı yanırsa, maşını patrulun məni cərimələyəcəyinə görə deyil, ilk növbədə ona görə saxlamalıyam ki, qırmızı işıqdan keçməklə, hərəkət qaydasını pozuram, özüm və başqası üçün riskli vəziyyət yaradıram ki, bununla qəzaya səbəb ola bilər, hətta insanların sağlamlığına və həyatına zərər verə bilərəm. Bu baxışla kiçik bir qanununa riayət etməklə biz bir-birimizin təhlükəsizliyini, sağlamlığını və rifahını düşünürük.

Demokratik ölkələrdə hətta ən yüksək vəzifə sahiblərinin belə cinayətdən əsirgəmədiyini və layiqincə cəzalandırıldığını sübut edən çoxlu faktlar tapa bilərik ki, bu da heç kimin qanundan üstün dayana bilməyəcəyini sübut edir. Məsələn, Paris məhkəməsi Fransanın keçmiş prezidenti Nikolya Sarkozini 3 il müddətinə azadlıqdan məhrum edib. O, nüfuzdan sui-istifadə və korrupsiyada təqsirli bilinib. İstintaqın məlumatına görə, Fransanın eks-prezidenti hakimlərdən birindən ona qarşı davam edən antikorrupsiya istintaqı barədə məlumat istəyib və bunun müqabilində ona Monakoda yüksək maaşlı iş təklif edib.

Korrupsiyada ittiham olunan Sloveniyanın keçmiş baş naziri Yanez Yanşa həbsxanaya salınıb. 2013-cü ilin iyununda məhkəmə onun 2006-cı ildə Sloveniya ordusuna Finlandiya hərbi texnikasının tədarükü üzrə tenderin nəticələrinə təsir etdiyini əsaslı hesab edib. Yanşa 280 milyon dollarlıq sövdələşmədə yardım qarşılığında Finlandiyanın "Patria" şirkətindən 2 milyon avro tələb edib.

Yaponiyanın baş naziri Tanaka ölkəsinin Lockheed-dən təyyarə alması müqabilində Amerikanın “Lockheed” şirkətindən 2 milyon dollar rüşvət alıb. 1983-cü ildə məhkəmə onu korrupsiyada təqsirli bilib. O, 4 il həbs cəzasına məhkum edilib və cərimələnib (500 milyon yen).

ABŞ-da baş verən Uotergeyt qalmaqalı da maraqlı bir nümunədir, buna görə prezident Riçard Niksonun vəzifəsindən istefa edib. Növbəti prezident onu əfv etməsəydi, həbsdən boyun qaçıra bilməyəcəkdi.

IV. İnsan hüquqlarının qorunması – İnsan hüquqları - insan həyatına və ləyaqətinə hörməti ifadə edən dəyərlərdir. Yəni hər hansı hüquq qadağan olunarsa, insanın həyatı və ya ləyaqəti təhlükə altında olar. İnsan hüquqlarına misal olaraq: söz azadlığı, sərbəst toplaşmaq azadlığı, sağlamlıq hüququ, bərabərlik hüququ, təhsil hüququ və s. daxildir. Demokratik sistemdə hər bir insanın həyatı və ləyaqəti önəmlidir. Hökumətin vəzifələrindən biri də insan hüquqlarını qorumaqdır. Demək olar ki, insan hüquqlarının müdafiəsi vətəndaşların dövlətə ehtiyac duymasının əsas səbəblərindən biridir.

Demokratik dövlətdə onun əsas qanununa (konstitusiyasına) mütləq şəkildə insan hüquqlarına həsr olunmuş hissə daxildir, orada dövlətin vətəndaşlarına təminat verilən hüquq və azadlıqlar sadalanır. O, həm də vətəndaşları hökumətin səlahiyyətlərindən sui-istifadə etməsindən qoruyur.

Müəyyən bir dövlətin qanunları ilə yanaşı, insan hüquqları Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq Hüquqları Konvensiyası, İnsan Hüquqları və Əsas Azadlıqlar Haqqında Avropa Konvensiyası kimi beynəlxalq əhəmiyyətli sənədlərlə də qorunur. Sonuncu, xalq arasında "Strasburq Məhkəməsi" kimi tanınan Avropa İnsan Hüquqları Məhkəməsinin əsasını təşkil edir.

V. *Bərabərlik* demokratik cəmiyyət bərabərlik prinsipinə böyük əhəmiyyət verir. Bu o deməkdir ki, bütün vətəndaşlar eyni dərəcədə dəyərlidir. İrqindən, dinindən, cinsindən (genderindən), etnik mənsubiyyətindən və digər fərqlərdən asılı olmayaraq, hər kəs diskriminasiya olmadan ədalət mühakiməsi üçün bərabər imkanlara və hüquqlara malik olmalıdır. Demokratik ölkələrdə hər bir insan və insan qrupları öz mədəniyyətini, inancını, şəxsiyyətini, dilini qorumaq hüququna malikdir.

Bərabərlik müasir demokratik dövlətin zəruri elementidir. O, insan rifahının ilkin şərtidir, çünki onsuz iqtisadi və siyasi inkişaf mümkün deyil. Hər bir insanın ictimai həyatda iştirak etmək, yaradıcılığını inkişaf etdirmək, dövlət vəzifəsini tutmaq və s. üçün bərabər imkanları olmasa, cəmiyyət xeyli resurs və imkanlarını itirəcək, daim mübarizə şəraitində olacaq.

Məsələn, dərisinin rənginə görə həbsə salınsaydı və ya qul kimi satılsaydı, Aleksandr Dümanın yazıçı olması və "Üç muşketyor", "Qraf Monte-Kristo" və digər məşhur ədəbi əsərlər yaratması mümkün olmazdı. Həmçinin, Fredi Merkuri cəmiyyət tərəfindən sıxışdırılsa və milli mənsubiyyətinə və ya cinsi oriyentasiyasına görə yaradıcılıq prosesinə mane olsaydı, dünya bütün rok dövrünü itirmiş olardı. Pele, Maykl Cordan, Kobi Bryant, Tayqer Vuds və ya Usain Bolt-a dəri rənginə görə, Nona Qaprindaşvili, Deb Uiliyams və ya Mia Hamm isə cinsinə görə istedadlarını nümayiş etdirməyə icazə verilməsəydi, idman dünyası çox yoxsullaşardı.

Bərabərlik anlayışı diskriminasiyanın qadağan edilməsi ilə birbaşa bağlıdır. Diskriminasiya heç bir obyektiv əsası olmayan bəzi xüsusiyyətlərə görə insanlara qeyri-bərabər və ədalətsiz münasibətdir. Onu da qeyd etmək lazımdır ki, bütün fərqli rəftar diskriminasiya hesab edilmir. Məsələn, görmə məhdudiyyətli adama sürücülük vəsiqəsinin verilməsindən imtina etmək bərabərliyin pozulması və ya diskriminasiyanı təşkil etmir, çünki bu halda aşkar obyektiv əsaslandırma var. Vahid Milli İmtahanlarda Brayl əlifbası testləri tətbiq edildikdə, bu, görmə qabiliyyətini itirmiş insanların təhsil hüququ baxımından açıq şəkildə əlverişsiz vəziyyətə düşdüyü diskriminativ vəziyyəti aradan qaldırdı.

VI. Azad, ədalətli seçkilər və onların nəticələrinin tanınması. Vətəndaşın seçkilərdə iştirakı xalqın iradəsini ifadə edən vasitələrdən biridir. Demokratik prinsiplər tələb edir ki, xalq tərəfindən seçilmiş nümayəndələr azad və ədalətli prosedurlarla seçilsin və ya yenidən seçilsin. Seçkilərdən əvvəl və ya seçki zamanı seçicilərə hədə-qorxu gəlmək, rüşvət vermək və ya hədələmək demokratiya prinsiplərinə ziddir. Namizədlərin/siyasi qüvvələrin səsvermə müqabilində seçicilərə fərdi maddi nemətlər verməsi və ya vəd etməsi bu prinsiplərin pozulmasıdır.

Demokratik seçkilər seçki administrasiyasının şəffaf, qərəzsiz, ədalətli və obyektiv işini tələb edir və hər hansı seçki manipulyasiyasını, seçki saxtakarlığının istənilən üsulunu istisna edir.

Demokratik cəmiyyətdə seçkilər mütəmadi olaraq, müəyyən müddətdən sonra keçirilir. Seçkilərdə iştirak seçicinin səhhətindən (məsələn, xəstə seçicilər üçün "daşınan qutusu" var), maddi vəziyyətindən asılı olmamalıdır. Vətəndaşların seçkilərdə iştirakına heç bir maneə olmamalıdır.

Azad və ədalətli seçkilərin keçirilməsi üçün vətəndaşların əksəriyyətinə öz namizədliyini irəli sürmək imkanı yaradılmalıdır. Heç kim vətəndaşların səsvermədə iştirakına mane olmamalıdır.

Demokratik seçkilər gizlidir. Heç kəsin seçicidən kimə səs verdiyini açıqlamasını tələb etməyə ixtiyarı yoxdur və seçicinin qərarını açıqlamaqdan qorumaq üçün seçki məntəqəsi (gizli səsvermə kabinəsi, seçki bülleteni üçün zərf) xüsusi şəkildə yaradılır. Demokratik ölkələrdə inklüziv seçki sistemi təmin edilir (məsələn, görmə məhdudiyyətli  insanlar üçün brayl əlifbası ilə çap edilmiş seçki bülletenləri, xüsusi şablonlar/matrislər uyğunlaşdırılıb, sensorlu cihazlar və ya etibarlı şəxsin köməyi ilə, seçki proqramlarının audio versiyaları ilə səs vermək də mümkündür).

Beləliklə, müntəzəm, azad və ədalətli seçkilər siyasi liderlərin onları seçən və xidmət etdikləri vətəndaşlar qarşısında hesabat verməsi üçün vacibdir. Azad və ədalətli seçkilərin tərkib hissəsi həm də ictimaiyyət nümayəndələrinin dövlət qulluğuna seçilmək və təyin olunmaq imkanının olmasıdır. Bu proses zəngin və hakim təbəqənin gücünü azaldır.

Demokratik seçkilərdə həm qalib, həm də məğlub olan var. Demokratik prinsiplər tələb edir ki, məğlub olanlar seçkidə uduzduqlarını etiraf etsinlər. Məğlub olanlar çox vaxt öz namizədinin ən yaxşı olduğuna inanır və seçkilərin nəticələrini qəbul etməkdə çətinlik çəkirlər. Seçkilərin tanınmaması zorakılığa gətirib çıxara bilər ki, bu da demokratik prinsiplərə ziddir. Demokratik seçkilərin nəticələri elan edildikdən sonra məğlub olan namizədin qalibi ilk təbrik etməsi yüksək siyasi mədəniyyətin təzahürüdür.

<u>VII.</u> <u>Tolerantlıq.</u> Ümumiyyətlə, tolerantlıq müxtəlif insanlara hörmət, rəğbət, səbir, xeyirxahlıq, barışmağa hazır olmaq, onlarla münaqişəsiz münasibətdir. Bu isə, dil, milli, mədəni, dini, siyasi, sosial, cinsi və digər mənsubiyyət növündən və ya fərqli xüsusiyyətlərindən asılı olmayaraq insanları olduğu kimi qəbul etmək deməkdir. Tolerantlığın əksi bu və ya digər fərqliliyə görə insanların dözümsüzlüyüdür.

Siyasi tolerantlıq da mövcuddur. Demokratik cəmiyyət siyasi cəhətdən tolerantdır. Bu o deməkdir ki, hakimiyyətin cilovu çoxluğun əlində olsa da, azlıqların hüquqlarına qəsd etmək olmaz. Hakimiyyətdə olmayan insanlar öz təşkilatlarını qura bilməli, prinsiplərini təbliğ edə bilməlidirlər. Bəzən azlıqlar çoxluğun fikir və prinsiplərini bölüşmədikləri üçün onlara "müxalifət" deyirlər. Fərdlər də bir-biri ilə tolerant münasibət qurmağı bacarmalıdır.

Demokratik cəmiyyət müxtəlif mədəniyyətlərdən, irqlərdən, dinlərdən, etnik qruplardan ibarətdir, onların baxışları əhalinin əksəriyyətindən fərqlidir. Müxtəliflik demokratiyanın əlamətlərindən biridir. Plüralizm demokratik cəmiyyəti gücləndirir. Əgər çoxluq azlığın hüquqlarını istəmirsə və qorumursa, deməli, demokratiyanın inkişafına mane olur.

VIII. Hökum*ətin şəffaflığı* – Hökumətin vətəndaşları qarşısında hesabat verməsi üçün əhali ölkədə hansı proseslərin getdiyini bilməlidir. Demokratiyanın bu prinsipi hökumətin şəfafflığı adlanır. Əhali hökumətin qərarlarını əsasən media vasitəsilə öyrənir. Bundan əlavə, şəffaf və açıq hökumət sadə vətəndaşların iştirak etdiyi ictimai görüşlər təşkil edir. Həmçinin dövlət orqanlarının veb saytları var ki, orada onların fəaliyyəti, həyata keçirdiyi, cari və gələcək layihələri, vəsaitlərin xərclənməsi barədə ictimaiyyətə məlumat yerləşdirilir. Bu gün kütləvi informasiya vasitələrinin ictimai rəyin formalaşmasında böyük təsiri olduğuna görə onu hətta qeyri-rəsmi olaraq "dördüncü hakimiyyət" ("hakimiyyətin dördüncü qolu") adlandırırlar.

IX. Çoxpartiyalı sistem. Tarix göstərir ki, birpartiyalı sistem diktaturaya gətirib çıxarır. Çoxpartiyalı sistem vətəndaşlara cəmiyyətin inkişafına töhfə verəcək namizədləri, partiyaları və strategiyaları seçmək imkanı verir. Bu, müzakirə olunan mövzularla bağlı hökumətdə müxtəlif fikirlərin olmasına töhfə verəcək. Həmçinin çoxpartiyalı sistemdə iqtidar partiyasına müxalifət yaratmaq imkanı var.

X. İqtisadi azadlıq. Demokratik cəmiyyətdə insanlara iqtisadi azadlıq verilməlidir. Bu o deməkdir ki, xüsusi mülkiyyət, fərdi sahibkarlıq qorunur, vətəndaşlar öz işini seçə, həmkarlar ittifaqlarına üzv ola bilərlər. Cəmiyyətin iqtisadi həyatında dövlətin roluna gəlincə, burada iki əsas fikir var. Əksər insanlar demokratik dövlətdə iqtisadiyyatın ən yaxşı formasının azad bazar olması ilə razılaşırlar. Dövlət iqtisadiyyata tam nəzarət etməməlidir. Bununla belə, bəziləri hesab edir ki, dövlət iqtisadiyyata daha çox müdaxilə etməlidir, xüsusən də cəmiyyətdə ayrı-seçkilik və digər ədalətsiz təcrübələr səbəbindən böyük sərvət bərabərsizliyinin olduğu ölkələrdə.

Beləliklə, demokratik sistemdə hökumətin xüsusi mülkiyyət, biznes və məşğulluq seçimində sərbəst seçimə icazə verməsi ümumiyyətlə qəbul ediləndir. Hökumətin iqtisadiyyatı tənzimləmə dərəcəsi ölkədən asılı olaraq dəyişir.

## Kompleks tapşırıq N4- Gürcüstanda vətəndaşlıq almaq və qanuni yaşamaq imkanları (X sinif)

| Mövzu: Vətəndaşlıq və qlobal vətəndsşlıq | | | |
|---|---|---|---|
| Kompleks tapşırıq<br><br>(başlıq) | **Hədəf anlayış və alt anlayışlar** | **Məsələ** | **Əsas sual** |
| Gürcüstan vətəndaşlığının verilməsi, eləcə də əcnəbilərin Gürcüstanda qanuni yaşaması imkanı ilə bağlı avropalı həmyaşıdına məktub yazmaq. | Demokratiya<br><br>Vətəndaşın hüquq və vəzifələri;<br><br>Gürcüstan vətəndaşlığı haqqında üzvi qanun;<br><br>Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanun. | Gürcüstanda vətəndaşlıq almaq və qanuni yaşamaq imkanları | Məktubda Gürcüstan vətəndaşlığının verilməsi imkanlarını, habelə əcnəbinin Gürcüstanda qanuni yaşaması imkanlarını necə nümayiş etdirməliyəm? |
| Uzunvadəli hədəf<br><br>Hədəf anlayışı və onunla bağlı yerli təsəvvürlər | Məsələ/Alt məsələlər<br><br>Gürcüstanda vətəndaşlıq almaq və qanuni yaşamaq imkanları<br><br>Alt anlayışlar:<br><br>Vətəndaşın hüquq və vəzifələri;<br><br>Gürcüstan vətəndaşlığı haqqında üzvi qanun; | Əsas sual / suallar<br><br>Məktubda Gürcüstan vətəndaşlığının verilməsi imkanlarını, habelə əcnəbinin Gürcüstanda qanuni yaşaması imkanlarını necə nümayiş etdirməliyəm? | Aralıq t**ədris hədəfi**<br><br>Kompleks tapşırığın **şərti** |

<table>
<tr>
<td></td>
<td>Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanun.</td>
<td></td>
<td></td>
</tr>
<tr>
<td>Demokratiya (insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri)<br><br>Nəticələr:<br><br>Orta pillə:<br><br>3, 4, 13.<br><br>1. Hər bir insan öz ləyaqəti və hüquqları ilə azad və bərabər doğulur;<br><br>2. Şəxs mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqlara malikdir; Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (bəyannamələr, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;<br><br>3. Demokratik cəmiyyətdə/dövlətdə insan hüquqları ən mühüm dəyərdir;<br><br>4. Demokratiya fundamental prinsiplərə (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı üsullarla fəaliyyət, tolerantlıq) əsaslanırki, bu prinsiplər qorunmasa, demokratik dövlət fəaliyyət göstərə bilməz.</td>
<td colspan="2">I mərhələ: Kompleks tapşırığın forması<br><br>Addım 1. Öyrənilməli olan mövzu ilə bağlı biliyimi necə nümayiş etdirməliyəm?<br><br>Dərs 1.<br><br>Resurs:<br><br>• Yaradılacaq məhsulun – məktubun yazılmasının mahiyyəti. Məktub necə yazaq<br>• Məktubun nümunəsi İş məktubunu necə yazaq?!<br><br>
<table>
<tr><td>Deklarativ və şərti biliklərə yönəldilmiş suallar</td><td>• Məktub yazmısanmı və ya alıbsanmı?<br>• Məktub səndə hansı təəssürat yaratdı?</td></tr>
<tr><td>Prosessual biliyə yönəldilmiş suallar</td><td>• Məktubu necə yazım?<br>• Məktub yazmaq üçün hansı addımları atmalıyam?<br>• Məktubun quruluşunu və xüsusiyyətlərini necə ayırım? (salamlama, açar sözlər, vidalaşma)</td></tr>
</table>
<br>II mərhələ: Kompleks tapşırığın şərti<br><br>Addım 1. Gürcüstan öz vətəndaşlarına hansı hüquq və vəzifələri verir (y.t. 1, 2, 3).</td>
<td>Təsəvvür et ki, avropalı həmyaşıdından məktub aldın. O, mübadilə proqramı çərçivəsində Gürcüstanda olub, ölkə onu heyran edib və o, Gürcüstan vətəndaşlığını almaq, eləcə də əcnəbinin burada qanuni yaşaması üçün hansı imkanların olması ilə maraqlanır. Müvafiq materialı öyrən və onun əsasında həmyaşıdına cavab məktubu yaz.<br><br>Məktubda/təqdimat zamanı aydın şəkildə nümayiş etdir:<br><br>• Gürcüstan öz vətəndaşlarına hansı hüquq və vəzifələri verir (y.t. 1, 2, 3).<br>• Gürcüstan vətəndaşları və burada yaşayan qeyri-vətəndaşların hüquq və vəzifələri necə fərqlənir (y.t. 1, 2, 3).<br>• Gürcüstanın vətəndaşlıq və yaşayış hüququnun verilməsi ilə bağlı mövcud qanunvericiliyi demokratik prinsiplərə nə dərəcədə uyğundur (y.t. 4)</td>
</tr>
</table>

Gürcüstan vətəndaşları və burada yaşayan qeyri-vətəndaşların hüquq və vəzifələri necə fərqlənir (y.t. 1, 2, 3).

Gürcüstanın vətəndaşlıq və yaşayış hüququnun verilməsi ilə bağlı mövcud qanunvericiliyi demokratik prinsiplərə nə dərəcədə uyğundur (y.t. 4)

Resurslar:

1. Məktəb dərsliyi. Sinif X, Dioqene nəşriyyatı, səh. 20-28;

2. Gürcüstan vətəndaşlığı haqqında üzvi qanun (maddə 3, 7, 8, 12, 13, 14, 16, 17, 22, 26, 27);

3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanun (maddə 5, 7, 10, 11, 14, 15, 16, 18, 20, 21, 25, 26, 35, 42, 44, 70);

4. Gürcüstan Konstitusiyası (İkinci fəsil. Vətəndaşın əsas hüqüqları, maddələr 9-35, həmçinin maddə 67.1, 70.2, 76.5);

5. Gürcüstan vətəndaşlığının adi qaydada verilməsi.

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Gürcüstan qanunvericiliyi Gürcüstan vətəndaşlarına hansı hüquq, azadlıq və öhdəliklər qoyur?<br>• Gürcüstan qanunvericiliyi xarici ölkələrin vətəndaşlarına hansı hüquq, azadlıq və öhdəliklər qoyur?<br>• Gürcüstanın vətəndaşlıq və yaşayış haqqında qanunları demokratik prinsiplərə nə dərəcədə uyğundur? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Xarici ölkələrin vətəndaşları Gürcüstan vətəndaşlığını necə ala bilərlər? Gürcüstan qanunvericiliyində bunun üçün hansı mexanizmlər nəzərdə tutulub? |

- Xarici ölkələrin vətəndaşları Gürcüstana qanuni olaraq necə daxil olub yaşaya bilərlər? Gürcüstan qanunvericiliyində bunun üçün hansı mexanizmlər nəzərdə tutulub?

III mərhələ: Kompleks tapşırığın t**əqdim edilməsi**

Şagirdlər kompleks tapşırığı təqdim edərkən müəllim tərəfindən verilən suallar:

- Təsvir et, tapşırıq üzərində işləmə prosesinin necə keçdi?
- Təsvir et, hansı məhsulu yaratdın?
- İzah et, hazırladığın tapşırığın mövzusu nədir?
- İzah et, məktubu niyə yazdın? Onun vasitəsilə nə demək istəyirdin?
- Fikrincə, yaratdığın məhsul həqiqətən məktubdurmu?
- Səncə, yaratdığın komplekli tapşırıqla kim maraqlanmalıdır və niyə?
- Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdın?
- Tapşırığa indi başlasaydın fərqli şəkildə nəyi yerinə yetirərdin?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisənmi?
- Səncə, tapşırığının sinif yoldaşlarının işləri ilə nə ortaq və fərqli cəhəti var?

## Kompleks tapşırıq N5- Müharibə cinayəti (XI sinif)

| Mövzu: Siyasət və siyasi mədəniyyət | | | |
|---|---|---|---|
| Kompleks tapşırıq<br><br>(başlıq) | **Hədəf anlayış və alt anlayışlar** | **Məsələ** | **Əsas sual** |
| Müharibə cinayətlərinin icraçısı tərəfindən insan hüquqlarının və humanitar hüququn pozulmasını nümayiş etdirmək üçün ittiham aktının hazırlanması. | Demokratiya<br><br>İnsan hüquqları,<br><br>beynəlxalq humanitar hüquq,<br><br>tolerantlıq,<br><br>qeyri-zorakı yolla hərəkət etmək | Müharibə cinayəti | İttiham aktında hərbi cinayətkar tərəfindən həyata keçirilən insan haqları və beynəlxalq humanitar hüquq pozuntularını necə nümayiş etdirməliyəm? |
| Uzunvadəli hədəf<br><br>Hədəf anlayışı və onunla bağlı yerli təsəvvürlər | Məsələ/Alt məsələlər<br><br>Müharibə cinayəti<br><br>Alt anlayışlar:<br><br>İnsan hüquqları,<br><br>beynəlxalq humanitar hüquq,<br><br>tolerantlıq,<br><br>qeyri-zorakı yolla hərəkət etmək | Əsas sual / suallar<br><br>İttiham aktında hərbi cinayətkar tərəfindən həyata keçirilən insan haqları və beynəlxalq humanitar hüquq pozuntuları necə nümayiş etdirməliyəm? | Aralıq t**ədris hədəfi**<br><br>Kompleks tapşırığın ş**ərti** |
| Demokratiya (insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri)<br><br>Nəticələr: | I mərhələ: Kompleks tapşırığın forması<br><br>Addım 1. Öyrənilməli olan mövzu ilə bağlı biliyimi necə nümayiş etdirməliyəm?<br><br>Dərs 1. | | Məlum olduğu kimi, 2023-cü il martın 17-də Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsi Rusiya prezidenti V. |

| | | |
|---|---|---|
| Orta pillə:<br><br>1, 2, 3, 4.<br><br>1. Bütün insanlar öz ləyaqəti və hüquqları ilə azad və bərabər doğulurlar;<br><br>2. Şəxs mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqlara malikdir; Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (bəyannamələr, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;<br><br>3. Demokratik cəmiyyətdə/dövlətdə insan hüquqları ən mühüm dəyərdir;<br><br>4. Demokratiya fundamental prinsiplərə (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı üsullarla fəaliyyət, tolerantlıq) əsaslanırki, bu prinsiplər qorunmasa, demokratik dövlət fəaliyyət göstərə bilməz. | Resurs:<br><br>• Yaradılacaq məhsulun – ittiham aktının yazılması mahiyyəti. İttiham aktı.<br>• Cinayət-Prosessual Məcəllədən çıxarış<br>• **İttiham aktı nümunəsi**<br><br>**Deklarativ və şərti biliklərə yönəldilmiş suallar:**<br>• İttiham aktını oxumusanmı?<br>• İttiham aktı səndə hansı təəssürat yaratdı?<br><br>**Prosessual biliyə yönəldilmiş suallar:**<br>• İttiham aktını necə tərtib edə bilərəm?<br>• İttiham aktı yaratmaq üçün hansı addımları atmalıyam (hansl tədris materialı ilə tanış olmalıyam)?<br>• İttiham aktının xüsusiyyətlərini necə təsvir etməliyəm (plan tərtib etməli, açar sözləri seçməliyəm, giriş, təsviri-motivasiya hissəsi və qətnamə hissəsi)?<br><br>II mərhələ: Kompleks tapşırığın **şərti**<br><br>Addım 1. Müharibə başlayandan sonra Ukraynada insan hüquqları necə pozulur (y.t.1, 2, 3); Rusiya Federasiyasının Ukraynaya silahlı hücumundan sonra beynəlxalq humanitar hüquq necə pozulur (y.t. 2).<br><br>Resurslar:<br><br>1. Məktəb dərsliyi. XI sinif, Dioqene nəşriyyatı, səh. 160;<br><br>2. Haaqa Məhkəməsi Putinin həbsinə dair order verdi; | Putinin həbsinə order verib. O, hərbi cinayətlərdə ittiham olunur. Təsəvvür edin ki, Haaqa məhkəməsinin prokurorusan və sənə Putinə qarşı ittiham aktı tərtib etmək tapşırılıb. Verilmiş materialı öyrən və onun əsasında ittiham aktı hazırla.<br>İttiham aktında/təqdimat zamanı açıq şəkildə təqdim et:<br><br>• Müharibə başlayandan sonra Ukraynada insan hüquqları necə pozulur (y.t. 1, 2, 3);<br>• Rusiya Federasiyasının Ukraynaya silahlı hücumundan sonra beynəlxalq humanitar hüquq necə pozulur (y.t. 2);<br>• Müharibə şəraitində demokratiya prinsipləri (qeyri-zorakı üsullarla hərəkət etmək, tolerantlıq) nə dərəcədə qorunur (y.t. 4). |

3. Beynəlxalq Humanitar Hüquq(Müharibə hüququ );

4. Beynəlxalq Cinayət Məhkəməsi ;

5. Radovan Karaciç haqqında məlumat ;

6. Radovan Karaciç ;

7. Rusiyanın Ukraynaya soxulması zamanı müharibə cinayətləri.

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Beynəlxalq humanitar hüquq haqqında nə bilirsən? Haaqa Məhkəməsi haqqında nə eşitmisən?<br>• Haaqa məhkəməsi Putinin saxlanılmasına niyə order verdi?<br>• Ukraynanın işğalından sonra Rusiya Federasiyasının silahlı qüvvələri tərəfindən hansı insan hüquqları pozulub?<br>• Rusiya Federasiyası Ukraynaya qarşı təcavüzkar müharibə zamanı beynəlxalq humanitar hüququn hansı prinsiplərini pozdu?<br>• Serb Respublikası Prezidenti Karaciç niyə cəzalandırıldı?<br>• Daha hansı dövlət və hərbi xadimlərin hərbi cinayətlərə görə edam edildiyini eşitmisən? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Beynəlxalq ictimaiyyət hərbi cinayətkarları cəzalandırmaq üçün hansı mexanizmləri nəzərdən keçirir?<br>• Siyasi şəxs hərbi cinayətlərə görə necə mühakimə oluna bilər? |

Addım 2. Müharibə şəraitində demokratiya prinsipləri (qeyri-zorakı üsullarla hərəkət etmək, tolerantlıq) nə dərəcədə qorunub saxlanılır (y.t.4).

Resurslar:

1. Tolerantlıq ;

2. Qeyri-zorakılıq.

| | |
|---|---|
| Deklarativ və şərti biliklərə yönəldilmiş suallar | • Ukraynada başlayan müharibədən irəli gələrək tolerantlıq və qeyri-zorakılıq prinsiplərinin pozulması özünü nədə büruzə verir? |
| Prosessual biliyə yönəldilmiş suallar | • Ukraynada davam edən müharibə halında, demokratiya prinsiplərinin (qeyri-zorakı üsullarla hərəkət etmək, tolerantlıq) pozulması reallığını necə əsaslandırım? |

III mərhələ: kompleks tapşırığın **təqdim edilməsi**

Şagirdlər kompelks tapşırığı təqdim edərkən müəllim tərəfindən verilən suallar:

- Təsvir et, tapşırıq üzərində işləmə prosesi necə getdi?
- Təsvir et, hansı məhsulu yaratdın?
- Hazırladığın tapşırığın mövzusu nə ilə bağlıdır?
- İzah et, ittiham aktını niyə çıxartdın? Onun vasitəsilə nə demək istəyirdin?
- Necə düşünürsən, yaratdığın məhsul həqiqətən də ittiham aktıdırmı?
- Səncə, yaratdığın kompleks tapşırıqla kim və nə üçün maraqlanmalıdır?
- Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdın?
- Tapşırığın üzərində işləməyə indi başlasaydın, nəyi daha fərqli şəkildə edərdin?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt heç yerinə yetiribsənmi?
- Səncə, sənə verilən tapşırıqla sinif yoldaşlarının işi arasında hansı oxşar və fərqli cəhətlər var?